# “Azər-Türk Bank” Açıq Səhmdar Cəmiyyəti
# AÇIQ TENDER ELAN EDİR

| | |
|---|---|
| Tenderin adı: | **Baş ofis və filiallar üçün dəftərxana və təsərrüfat mallarının satın alınması** |
| Tenderin elan tarixi: | **30.01.2026** |

“Azər-Türk Bank” Açıq Səhmdar Cəmiyyəti ilə əməkdaşlıq etmək üçün saytda yerləşdirilmiş Məlumat Sorğusunun doldurulması və qeyd edilən elektron ünvana göndərilməsi mütləqdir. Yalnız bundan sonra “etibarlı təchizatçılar siyahısı”-na daxil olmaq mümkündür. Nəzərinizə çatdırırıq ki, “Azər-Türk Bank” Açıq Səhmdar Cəmiyyəti bütün satınalma müqavilələrini yalnız daxili “etibarlı təchizatçılar siyahısı”-nda olan şirkət və fərdi sahibkarlarla bağlayacaqdır.

İştirak haqqı: **250 (iki yüz əlli) manat**
İştirak haqqı aşağıdakı bank rekvizitləri üzrə həyata keçirilməlidir:

**“Azər-Türk Bank” Açıq Səhmdar Cəmiyyəti**

| | |
|---|---|
| VÖEN: | 9900006111 |
| KOD: | 507699 |
| M/h: | AZ02NABZ01350100000000022944 |
| H/H: | AZ15AZRT45270019440000001999 |
| SWİFT: | AZRTAZ22 |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
İştirakçılar, iştirak haqqını ödədiklərinə dair qəbzi təqdim etdikdən sonra, Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, C.Məmmədquluzadə küçəsi, 85 nömrəli ünvanından və ya mail ilə müraciət edərək (tender@atb.az) ala bilərlər.
Tender iştirakçılarından tələb olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

**Tenderdə iştirak üçün təqdim ediləcək sənədlər:**

- tenderdə iştirak etmək üçün yazılı müraciət (ərizə);
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- **tender təklifi tender zərflərinin açıldığı tarixdən (13 fevral 2026-cı il) sonra ən azı 45 (qırx beş) bank günü qüvvədə olmalıdır;**
- iddiaçının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son üç ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının müflis olmaması, mülkiyyəti üzərinə məhkəmə qərarı ilə həbs qoyulmaması, kommersiya fəaliyyətləri dayandırılmaması və bu növ məhkəmə-hüquq prosedurlarına məruz qalmaması barədə arayış;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;
- iddiaçının öz mülahizəsinə uyğun digər sənədlər.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 12 fevral 2026-cı il saat 16:00-a qədər Bakı şəhəri, Nəsimi rayonu, C.Məmmədquluzadə küçəsi, 85 nömrəli ünvana təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.
İddiaçıların təklifləri 13 fevral 2026-cı il saat 11:00-da Bakı şəhəri, Nəsimi rayonu, C.Məmmədquluzadə küçəsi, 85 nömrəli ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər. İştirak edən nümayəndələr səlahiyyətlərini təsdiq edən sənədi (etibarnamə) mütləq şəkildə təqdim etməlidirlər.

Satınalma Komissiyası